# İsmayıllıdan olan şagirdlər şimal bölgəsindədir

İsmayıllı rayonunun ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərindən ibarət 35 nəfərlik qrup noyabrın 16-da səhər "Ölkəmizi tanıyaq" devizi altında ayın 19-dək davam edəcək növbəti tur-aksiya çərçivəsində Qubaya yola salınıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən bu layihə məktəblilər, valideynlər, ümumən rayon ictimaiyyəti tərəfindən böyük minnətdarlıqla qarşılanıb. İsmayıllının mərkəzi meydanında təşkil olunan yolasalma mərasimində tur-aksiya iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək heykəlin önünə gül-çiçək dəstələri qoyublar.

Tədbirdə çıxış edənlər layihənin ölkə başçısının gənclərə diqqət və qayğısının nəticəsi olduğunu söyləyiblər. Eyni zamanda bildirilib ki, belə tədbirlər yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsində, onların asudə vaxtlarının səmərəli və mənalı təşkilində böyük əhəmiyyət kəsb edir.

Çıxışlarda vurğulanıb ki, indiyədək keçirilən tur-aksiyalarda İsmayıllıdan ümumilikdə 150 nəfərədək məktəbli Azərbaycanın ayrı-ayrı bölgələrində olub. Dörd gün davam edəcək səfər çərçivəsində şagirdlər Quba, Qusar və Xaçmaz bölgələrini gəzəcək, bu yerlərin dünəni, bu günü barədə ətraflı bilgilər alacaq, şən və mənalı istirahət edəcəklər.

Səfərdən böyük təəssüratla qayıdacağına əminliyini bildirən XI sinif şagirdi Samirə Mikayılova deyib: "Ölkəmizin şimal ərazilərinə getmək, gəzmək çoxdankı arzum idi. Prezidentə çox minnətdaram ki, tapşırığı ilə reallaşdırılan "Ölkəmizi tanıyaq" tur- aksiya çərçivəsində bu arzuma çatacağam. Etiraf edim ki, gedəcəyimiz rayonlar barədə o qədər də dərin məlumatım yoxdur. Şimal bölgəmiz barədə yalnz kitablardan, mətbuatdan oxumuşam. Heç şübhəsiz ki, oxuyub öyrənməklə yanaşı, gəzib görməyin ayrı yeri var. Yoldaşlarımla Qubaya yola düşürük. Qusara, Xaçmaza da səfər edəcək və Vətənimizin bu gözəl guşələri ilə yaxından tanış olmaq imkanı qazanacağıq. Bu tanışlıq da o yerləri bizlərə daha çox sevdirəcəkdir".

Rayon icra hakimiyyəti başçısının müavini Sevil Əhmədova, rayon təhsil şöbəsinin müdiri Rasim Orucov və valideyn Bayram Rəhimov da yolasalma mərasimində çıxış edərək şagirdlərə yaxşı yol arzulayıblar.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***